**Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli ,Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 4, maddə 323, 12, maddə 1034; 2007, 11, maddə 1105, 12, maddə 1246; 2009, 7, maddə 533, 8, maddə 627, 10, maddə 773, 12, maddələr 983, 988; 2010, 2, maddə 83, 4, maddə 292, 11, maddə 966; 2011, 1, maddə 18, 2, maddə 85, 4, maddə 281, 6, maddə 497, 10, maddə 894, 11, maddə 993; 2012, 10, maddə 950; 2014, 6, maddə 627, 7, maddə 820, 9, maddə 1029; 2016, 1, maddə 77) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 8.7-ci (hər iki halda) və 9.11-ci yarımbəndlərdən ", habelə təhsil müəssisələrinin" sözləri çıxarılsın.

2. 9.9-cu yarımbənddə "və qeyri-kommersiya hüquqi şəxslərin, habelə xarici qeyri-kommersiya hüquqi şəxslərin nümayəndəlik və filiallarının," sözləri çıxarılsın, "sahələrdə" sözündən (birinci halda) sonra "və bu Əsasnamənin 9.11-ci yarımbəndində nəzərdə tutulmuş sahədə" sözləri əlavə edilsin.

3. 9.12-ci yarımbənddə ", habelə təhsil müəssisələrinin" sözləri "və xarici qeyri-kommersiya hüquqi şəxslərin nümayəndəlik və filiallarının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2017-ci il
1240